ATATÜRK ÜNİVERSİTESİ YAYINLARI
ATATURK UNIVERSITY PUBLICATIONS

Araştırma Makalesi *Research Article* DOI: 10.5281/zenodo.14260600

# Diaspora və Din Kimliyi: Sinxron Bağliliq və Fəaliyyət

## Diaspora and Religious Identity: Synchronous Connection and Asynchronous Operation

Yəhya BABANLI
(Sorumlu Yazar-Corresponding Author)

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı, İxtisas: Beynəlxalq münasibətlər tarixi, Bakü, Azerbaycan
y_babanli@yahoo.com

Geliş Tarihi/Received 19.09.2024
Revizyon Tarihi/Revision Date 01.11.2024
Kabul Tarihi/Accepted 02.12.2024
Yayın Tarihi/Publication Date 15.12.2024

Atıf:
Babanlı, Yəhya. "Diaspora və Din Kimliyi: Sinxron Bağlılıq Və Fəaliyyət". *Tarih ve Tarihçi*, 3, sy.2 (Aralık 2024): 154-165.

Cite this article:
Babanlı, Yəhya. "Diaspora And Religious Identity: Synchronous Connection and Asynchronous Operation". *History and Historian*, 3, issue.2 (December 2024): 154-165.

Content of this journal is licensed under a Creative Commons Attribution-Noncommercial 4.0 International License.

**Öz**

Bu tədqiqatın məqsədi diaspora nəzəriyyəsində dini fəlsəfənin yeri və rolunu araşdırmaqdır. İnsan cəmiyyətinin tərkib hissəsi olan milli icmalarda genekod ilə dini kodların mövcudluğunu öyrənmək, diaspora ilə dinin konseptuallaşdırılmasının mümkünlüyü barədə müzakirələrə aydınlıq gətirməkdir. Diasporanın etnik-milli, sosial-mədəni reallıqlarla yanaşı, dini kimlik kontekstində öyrənilməsinin nəzəri-praktiki əhəmiyyətini üzə çıxarmaqdır. Diaspora-din münasibətinin ortaq məxrəcə gəlməsi yoluna dair tövsiyə və təkliflər verməkdir. Onların bərabər çalışması və birlikdəlik təşkil etməsini faktarla əsaslandırmaqdır. Aparılan tədqiqat işi buna bənzər çox faydalı sinerjilərdən qidalanmışdır. Dinin diasporanın nüvəsi olduğunu qənaətini irəli sürmüşdür.

Elmi tədqiqat işində diaspora nəzəriyyəsində dini fəlsəfənin yeri və rolunu araşdırılmış, diaspora ilə dinin konseptuallaşdırılmasının mümkünlüyü ilə bağlı müzakirələrə aydınlıq gətirilmişdir. Diasporanın etnik-milli, sosial-mədəni reallıqlarla yanaşı, dini kimlik kontekstində öyrənilməsinin nəzəri-praktiki əhəmiyyəti üzə çıxarılmışdır. Azərbaycan kontekstində diaspora-din münasibətinin ortaq məxrəcə gəlməsi yoluna dair tövsiyə və təkliflər verilmişdir.

Məqalədə insan cəmiyyətində, millətlərin və xalqların tarixi vətənlərindən kənarda yaşaması və vahid icma halında məqsədyönlü fəaliyyəti anlayışının – diaspora termininin əmələ gəlməsinə başlıca səbəb dini fəaliyyət olduğu qənaətinə gəlinmişdir. Dinin tarix boyu miqrasiya, şəxsiyyət və diaspora icmalarının mədəniyyətləri ilə bağlı olduğu üzə çıxarılmışdır.

Gəldiyi nəticə ondan ibarətdir ki, din amilindən sui-istifadə edilməsinin, xurafat və dünyəvi inkişafa manеə yaratmasının qarşısının alınması çox vacibdir. Azərbaycan diasporasının da mənəvi-dini məsələlərə diqqət yetirməsi labüddür. "Tolerantlığın və mülki inteqrasiyanın milli konsepsiyası" planları hazırlanarkən bu elementlər diqqətdə saxlanılmasının vacibliyi göstərilmişdir.

**Açar sözlər:** Diaspora, din, ideologiya, tolerantlıq, Azərbaycan diasporası.

**Abstract**

The purpose of this study is to investigate the place and role of religious philosophy in diaspora theory. To study the existence of genecode and religious codes in national communities that are part of human society, to clarify the discussions on the possibility of conceptualizing religion with diaspora. To reveal the theoretical and practical importance of studying diaspora in the context of religious identity, along with ethnic-national, socio-cultural realities. To give recommendations and suggestions on the way to reach a common denominator in the diaspora-religion relationship. To substantiate their joint work and unity with factors. The research work was nourished by such very useful synergies. It put forward the conclusion that religion is the core of diaspora.

In the scientific research work, the place and role of religious philosophy in diaspora theory were investigated, and the discussions on the possibility of conceptualizing religion with diaspora were clarified. The theoretical and practical importance of studying diaspora in the context of religious identity, along with ethnic-national, socio-cultural realities, was revealed. Recommendations and suggestions are given on how to bring the diaspora-religion relationship to a common denominator in the context of Azerbaijan.

The article concludes that the main reason for the emergence of the term diaspora- the concept of living and purposeful activity of nations and peoples outside their historical homelands in human society and as a single community - is religious activity. It is revealed that religion has been associated with migration, identity and the cultures of diaspora communities throughout history.

The conclusion is that it is very important to prevent the abuse of the religious factor, prejudice and the creation of obstacles to secular development. It is also necessary for the Azerbaijani diaspora to pay attention to spiritual and religious issues. The importance of keeping these elements in mind when preparing the plans for the "National Concept of Tolerance and Civil Integration" is shown.

**Keywords:** Diaspora, religion, ideology, tolerance, Azerbaijani diaspora.

## Giriş

Ən yeni tarixdə diaspora – hər hansısa bir xalqın ana vətənindən kənarda daimi yaşayan bir qrup insanın təkcə təşkilatlanmasını ifadə etmir. Bu anlayış yəhudilərin sarkal yazılarının məcmusu olan "Tövrat"da rast gəlinən ilkin mənasını dəyişib, yeni forma alıb.

Hazırda diaspora – beynəlxalq münasibətlərin faktoru, "ictimai diplomatiya", siyasi təsir mexanizmi, "yumşaq güc" və iqtisadi potensiala malik "lobbi qrupu" deməkdir. Uğurlu diasporanın formalaşması prosesi dövlətlərin inkişafı ilə paralel getməklə, qarşılıqlı təsir doğurur.

Diaspora donor dövlət ilə resipient ölkə arasında humanitar platforma kimi çıxış edir. Yəni, mənşə ölkəsi milli icmalarının - diasporanın güclənməsinə dəstək olur, sağlam təfəkkürlü diaspora isə tarixi vətənlə yanaşı, yurd saldığı dövlətin mənafeyinə xidmət göstərir. Xalqlar və dövlətlərarası əlaqələrin inkişafında "qızıl körpü" rolunu oynayır.

Diaspora şüurunun yaranması və inkişafı insanın tarixi vətəni ilə ev sahibi ölkə arasında qopmaq təhlükəsini aradan qaldırmaq məsələsidir. Diasporalar keçmişlə-indi arasında körpüdür, mənşə ilə donor ölkə arasında əlaqələr yaradır. Yəni, diaspora məcburi və ya könüllü yerdəyişmə, vətəndən uzaqda yeni yaşayış məkanı seçmənin nəticəsidir. Təkcə məcburi köçün nəticəsi kimi deyil, eləcə də müsbət məqsədlə düşünülmüş könüllü köçün nəticəsi kimi görünür (Bura, təbii və texnogen fəlakətlər, iqlim və sərhədlərin dəyişmələri, habelə ziyarət, təhsil, əmək fəaliyyəti və s. daxildir).

Buna görə də diasporalar "etnik şüurun növü", "milli genefondun daşıyıcısı", "sosial forma" və "mədəni təkrar istehsal üsulu", habelə "dini kimliyin saxlanılması" kimi götürülə bilər.

Diaspora və din münasibətləri "plüralizmə əsaslanan fəaliyyət tolerantlıqla ev sahibliyi edən ölkələrdə fərqli yaradıcı, zənginləşdirici həyatın" mümkünlüyünə gətirib çıxarır. Sağlam diaspora anlayışı vətənin mifləşdirilməsi ideyasını, "onun saxlanmasına, bərpasına, təhlükəsizliyinə və çiçəklənməsinə sadiqlik" və "şüurda geridönüş hərəkatının inkişafı" ideyasını qoruyur.

"Ev sahibi olan cəmiyyətlə problemli münasibətlər" də bir ehtimal olaraq qalır. Qrupun marağı insanın öz şəxsiyyəti kontekstində daim dinamik bir prosesdə qurulur, mədəni və siyasi həyatı böyük ölçüdə dəyişə bilir. Əsasən iki antaqonist ehtiyac, uyğunlaşma və qorunma ehtiyacı ilə qidalanır. Yenidən qiymətləndirmələr və nöqsanlar adi haldır ki, diasporalar tərəfindən üslublaşdırılan vətən artıq evdə qəbul edilən vətənlə uzlaşmır. Şəxsiyyət və ev sahibi münasibətləri fəal diasporanın təcrübəsi vasitəsilə qurulur. Bir təsəvvür formalaşdıran sosial-mədəni reallıqlar isə millətdən uzaq və ya tək bir topluma tam əks oluna bilməz. Diasporaların sayəsində yeni mühitlə vətəndaşlar arasında müzakirələr qurmağa və paylaşmağa imkan verir.

Diasporanı müəyyən edən amil özünü belə təmsil edərək siyasi fəaliyyətə doğru irəliləmək gücüdür. Siyasi fəaliyyət geniş mənada, o cümlədən qrupun və ya ev sahibinin maraqlarına uyğun hərəkətlərin hər bir forması kimi başa düşülməlidir".[1]

Bu sahənin araşdırmaçıları diasporanı Babil sürgünündən qayıtdıqdan sonra yəhudilərin başqa millətlər arasında yayılması və ya Fələstindən və ya indiki İsraildən kənarda "sürgündə" səpələnmiş yəhudilərin və ya yəhudi icmalarının məcmusu kimi xarakterizə edirlər. Dinlərin, inancların diaspora şüurunu formalaşdırmaq, bərkitmək, təşkilatlanmaq üçün əlavə "sement effekti" verdiyini qeyd edirlər. Mütəxəssislər bildirirlər ki, "insanlar özlüyündə diasporları təşkil etmirlər" ifadəsindən başlayaraq dini diasporanın mümkünlüyü ilə bağlı elmi müzakirələr artıq çox mürəkkəblərin axmasına səbəb olub.

Dini diasporizm mənşə ölkəsində ev və tanışlıq dəyərini qazanan dini forma, eləcə də yaşayış ölkədə mövcud olan və ev sahibi mədəniyyətin dəyəri ilə yüklənmiş dini forma aiddir. Dini diasporizm bu iki dünya arasında parçalanmaq, əzab çəkmək, ideallaşdırmaq və mənəvi dəyərləri müzakirə etmək, eyni zamanda sosial, mədəni, ictimai və siyasi təmsilçilik üçün gündəm hazırlamaq deməkdir. Buna görə də dini diaspora "şüurun bir növü" və "mədəni təkrar istehsal üsulu" və müəyyən dərəcədə hətta "sosial forma"dır. Sonuncu, diasporik sosial formaların insanları öz ətrafına toplayan və nəticədə bütün qrupa diaspora xarakterini verən kiçik diaspora elitasının işinə qədər gedib çıxması ilə əlaqədardır.

1 https://www.britannica.com/event/Babylonian-Captivity

Çünki birmənalı olaraq "inanc və etnik mənsubiyyətin üst-üstə düşməsi", "dünya dinləri timsalında vətən mifi, onun ideallaşdırılması və nəzərə çarpan şəkildə qayıdış hərəkatı faktı yoxdur".[2]

Xristianlığın müqəddəs kitablar toplusu olan Bibliyada rast gəlinən termin yəhudilərin bütün dünyaya fiziki səpələnməsinə işarə etsə də, yəhudilər İsrail torpağı ilə özləri arasında xüsusi əlaqəni dərk etdikləri üçün dini, fəlsəfi, siyasi və esxatoloji mənalar da daşıyır. Bu münasibətin şərhləri ənənəvi yəhudiliyin məsihçi ümidindən tutmuş, "sürgünlərin bir araya gəlməsi" ilə bağlı islahat yəhudiliyinə qədər Məbədin dağıdılmasının Allah tərəfindən bütün dünyada xalis monoteizmi təşviq etmək üçün qabaqcadan planlaşdırıldığına qədər müxtəlifdir.

"Diaspora" anlayışı bir termin kimi XX əsrin 50-60-cı illərində ABŞ-da siyasi-ictimai elmlərin terminləri sırasına daxil edilib. Bu kəlmə qədim yəhudilərin "qalut" sözünün yunan dilinə tərcüməsindən yaranıb. Bibliyaya görə "diaspora" yanlış qiymətləndirilmişdir. Bunu "yəhudilərin günahkar olduqlarından allah onları dünyaya səpələmişdir" kimi xarakterizə etmişlər. Lakin İslam dininin müqqəddəs kitabı olan Quranda yəhudi qövmünün günahkar kimi qovulması deyil, sınağa çəkilməsi və bir müddət tarixi ərazilərindən dağılması ilə bağlı ayə verilmişdir: "(Allah Musaya) buyurdu: Artıq ora (müqəddəs torpaq) qırx il müddətinə onlara haram edildi. Onlar olduqları yerdə (Tih səhrasında) sərgərdan gəzib dolaşacaqlar".[3]

Müasir zamanda diaspora bir cəza növü deyil, əksinə ən böyük lütf də sayıla bilər.[4]

"Erkən yəhudi tarixində ən böyük, ən əhəmiyyətli və mədəni cəhətdən ən yaradıcı yəhudi diasporası e.ə. I əsrdə əhalisinin 40 faizi yəhudilərdən ibarət olan İsgəndəriyyədə çiçəkləndi. Eramızın I əsrində təxminən 5.000.000 yəhudi Fələstindən kənarda, təxminən beşdə dördü Roma İmperiyasının tərkibində yaşayırdı, lakin onlar Fələstinə dini və mədəni həyatlarının mərkəzi kimi baxırdılar. Diaspora yəhudiləri hələ eramızın 70-ci ilində Qüdsün dağıdılmasından əvvəl Fələstindəki yəhudilərdən çox idi. Bundan sonra yəhudiliyin əsas mərkəzləri ölkədən ölkəyə (məsələn, Babilistan, İran, İspaniya, Fransa, Almaniya, Polşa, Rusiya və ABŞ) dəyişdi və yəhudi icmaları özlərini qeyri-yəhudi mühitlərində tədricən fərqli dilləri, ritualları və mədəniyyətləri başqalarından daha yaxşı şəkildə qəbul etdilər. Bəziləri sülh şəraitində yaşasa da, digərləri şiddətli antisemitizmin qurbanı oldu".[5]

Ümumi gəlinən qənaət belədir ki, yəhudi diasporasının yaranması e.ə. 586-cı ildə Babil sürgününün nəticəsi idi. Babillilər Yəhuda səltənətini fəth etdikdən sonra yəhudi əhalisinin bir hissəsi köləliyə məhkum edildi. 538-ci ildə Farsların Babilistanı fəth edən Böyük Kir yəhudilərin vətənlərinə qayıtmasına icazə versə də, yəhudi icmasının bir hissəsi könüllü olaraq geridə qaldı. Bir çox israillinin müdafiə etdiyi "shelilat ha-galut" ("sürgündən imtina") nəzəriyyəsinə görə, yəhudilərin həyatı və mədəniyyəti diasporada assimilyasiya və akkulturasiya səbəbindən məhv olur. Yalnız İsrailə köçən yəhudilərin davam edəcəyinə ümid bəsləyir: yəhudilər kimi mövcudluğu ehtiva edir. Nəzərə almaq lazımdır ki, nə bu, nə də İsrail üçün əlverişli olan hər hansı digər mövqe İsrailin Məsih dövrünün gəlişi ilə bağlı Bibliya peyğəmbərliyinin yerinə yetirilməsi olduğunu güman etmir. Baxmayaraq ki, islahat yəhudiləri hələ də ABŞ-da və başqa yerlərdə diasporanın etibarlı olduğunu iddia edirlər. 1937-ci ildə Amerika ravvinlərinin Mərkəzi Konfransı Allahın iradəsinin ifadəsi olaraq yəhudilərin İsrailə qayıtmağı artıq səbirsizliklə gözləməməli olduğunu bəyan edən 1885-ci il Pittsburq Platformasını rəsmi olaraq ləğv etdi. Bu yeni siyasət yəhudiləri tarixi vətəninin qurulması ideyasını dəstəkləməyə fəal şəkildə təşviq etdi. Digər tərəfdən, 1943-cü ildə qurulan, lakin indi ölməkdə olan Amerika Yəhudilik Şurası yəhudilərin yalnız dini mənada yəhudi olduqlarını və Fələstində bir yəhudi vətəninə verilən hər hansı dəstəyin onların yaşadıqları ölkələrinə qarşı sədaqətsizlik olacağını bəyan etdi.[6]

Dini diaspora ideyasının tərəfdarları o vaxtdan bəri, ilk növbədə, müqəddəs xüsusiyyətlərə malik hesab etdikləri bir ölkəyə və ya konkret coğrafi əraziyə bağlı olan etnik mənsubiyyətə malik dinlərin olduğunu sübut etməyə cəmləşdilər. yəhudilik, xristianlıq, hinduizm və hətta, zərdüştilik dini diaspora ideyasının qəbul edilə biləcəyi dinlərdir, çünki onların hamısı etnik kimliyi təyin edir və müqəddəs əraziyə istinad edir. Heç olmasa diskursiv səviyyədə ideallaşdırmaq, arzuladıqları və qayıtmağa çalışdıqları, mifik ərazinin, diaspor şüurunun və qayıdış həsrətinin mövcudluğu bu dini

[2] https://www.movingpeoplechangingplaces.org/identities-cultures/religion-identity-diaspora.html
[3] Qurani-Kərim, əl-Maidə surəsi, 26-cı ayə.
[4] https://www.britannica.com/topic/Pittsburgh-Platform
[5] https://muse.jhu.edu/pub/50/article/640333/pdf
[6] https://muse.jhu.edu/pub/50/article/640333/pdf

icmaların diaspor kimi qiymətləndirilməsinə şərait yaradır. Beynəlxalq mütəxəssis R.Koen tərəfindən də etiraf edilən başqa bir imkan diasporanın tam ərazisizləşdirilməsidir.[7]

Bu, bir neçə dini qrupa diaspor kimi baxmağa imkan verir, lakin diaspora anlayışının xüsusiyyətləri belə genişlənir. Onun elmi faydalılığını şübhə altına alan bir üsulu rədd edir.

Diaspora sahəsindəki araşdırmalar göstərir ki, qədim və orta əsrlərdə olduğu kimi, müasir dövrdə də diaspor sahəsində dinin müəyyənedici xüsusiyyətlərinin aktuallaşması müşahidə olunur. Bu vəziyyətdə qiymətləndirmə konsepsiyanın güclü tərəflərini, eləcə də gələcək tədqiqatlarda hələ də həll edilməli olan aspektləri vardır.

Bu tədqiqatda fərqli bir istiqamət öyrənilmiş, diaspora və din anlayışlarına qarşılıqlı şəkildə baxış ortaya qoyulmuşdur. Dini görüşün qoruyub saxlanılması, lakin dini diasporanın əsas ideologiyası hesab edilməməsi kimi nüanslar mövcuddur. Diasporadan danışarkən etnik, coğrafi və ya ərazi xarakterli meyarlar deyil, din baxımından konkret müəyyən olunan istinad nöqtəsi olmalıdır. Burada bəzi qruplar ərazi və etnik baxımdan ayrılacaq, dini ilə əlaqəli olacaqdır. Sözügedən dini qrupun müfəssəl olub-olmamasından asılı olmayaraq bir əraziyə və ya etnik qrupa bağlı qaldığını göstərməklə dini diasporun varlığını əsaslandıran nəzəriyyələr son nəticədə etno-ərazi və dini aspektlərlə birləşir.

Aydındır ki, dini diasporların müqəddəs ərazilərin mövcudluğuna söykənən nəzəriyyələri əsasda dini dəyər daşıdığından asılıdır. Onlar yalnız dini diasporun konseptuallaşdırılması imkanlarını yalnız bu tipə endirdikdə problemli olurlar. Bu, nəinki dini diasporların digər formalarına məhəl qoymur, eyni zamanda onları əraziyə və ya etnik mənsubiyyətə, əlavə müqəddəs ölçü ilə onsuz, və ya ən yaxşı halda etnik-dini birləşmiş dəyər üzərində mərkəzləşdirilmiş. dinin özüdür. Bu onu göstərir ki, bu cür təriflər diasporun etnik anlayışına əlavədir. Bu birləşməni ləğv etmək, dini mərkəzə yerləşdirmək, ərazini və ya etnik mənsubiyyəti, ancaq ikinci dərəcəli determinant kimi qorumaq və diasporun dini mənsubiyyətinə görə müəyyən edilərək necə başa düşülə biləcəyi sualını axtarmaqdır. Diasporanı təkcə etno-ərazi meyarlarına, akkulturasiya problemlərinə görə deyil, dini nöqteyi-nəzərdən  də təhlil etmək gərəkdir.

Bundan əlavə, bu cəhd diaspora tədqiqatları daxilində dinə daha çox diqqəti cəlb etmək məqsədi daşıyır. Din, Babil əsarətinə qədər izlənilə bilən yəhudi təcrübəsinə əsaslanan və Qanunun təkrarı yazılarından bu yana teoloji cəhətdən əks olunan diasporanın orijinal tərifində əsas elementdir. Bunun şüurlu olması din alimlərinin diaspora ilə bağlı yeni, sosioloji konsepsiyanı mənimsəməkdə çətinlik çəkmələrinin səbəbidir.

Həqiqətən də, diaspora tədqiqatları hələ də bu istiqamətdə təcrübəsinin əsas elementi kimi dini düzgün başa düşmür və ya qəbul etmək istəmir. Diasporaşünaslıqda sosial-mədəni baxış olaraq qəbul edilən diaspora doktrinası milli mənsubiyyətlə yanaşı dini  kimlik baxımından da qəbul edilməli və bu fəaliyyət növündə dini inancın əsas tərəfi təşkil etdiyi nəzərə alınmalıdır.

Əgər humanitar elmlərin inkişafını sürətləndirmək və ictimai-siyasi aktual mövzular ətrafında müzakirələrə töhfə verməyi düşünürüksə, düzgün olar ki, diasporşünaslıq ilə dinşünaslığın sinxron bağlılığı öyrənilsin, tədqiq edilsin və nəticə çıxarılsın. Bu sahədə çalışan alimlərin vəzifəsi müəyyənləşdirilsin və aspektlərin nə olduğu göstərilsin. Diasporların dini formasiyası və tronsformasiyası meydana gətirilsin.

Diasporologiya, diasporizm, diasporal şüur və bu sahədə fəaliyyət göstərir ki, burada din faktoru qaçılmazdır, hətta "ruh və bədən" kimi iç-içədir. Din insan cəmiyyətinin bütün formaları kimi diaspora ilə də birgə-bərabər addımlayır. Belə ki, dini diaspora - din və diaspora, diaspora tədqiqatları, yəhudi diasporası, İudaizm, (Sionizm ideologiyası), Xristianlığın katolik məzhəbi, xristian-pravoslav diasporası, Rumın-pravoslav diasporası, xaricdəki dini təmayüllü alman yığıncaqları, habelə İslamın sünni və şiə təriqətləri və s. bunu bir daha təsdiq edir.

Haqlı olaraq bəzi tədqiqatçılar diaspora konseptində etnik mənsubiyyətlə yanaşı, dini kimliyi ön plana çəkir. Bu da tarixi reallığı əks etdirir. Çünki, yəhudi xalqı ilə birbaşa bağlı olan diasporanın yaranmasının kökündə Musəvilik dayanır. Məhz diasporal ailə - eyni kökdən olan insan qrupları ilə milli icmalar yaradır, müxtəlif sosial-mədəniyyət təşkilatlar formalaşdırır. Eyni zamanda tarixi yaddaşdan irəli gələn inanclarına uyğun dini şəbəkələr yaradırlar. Bu da mənəvi dəyərlərin, din inancların qlobal səviyyədə qorunması və genişlənməsinə səbəb olur.

---

[7] Cohen, R. (1997). Global Diasporas: An Introduction. Seattle, WA: University of Washington Press.

Nəticə etibarilə gəlinən qənaət ondan ibarətdir ki, dinin diaspor hissləri və münasibətləri yaratmaq qabiliyyəti də etiraf edilməlidir. Diaspora və din anlayışına bir pəncərədən baxmaq gərəkdir: həm elmi-praktiki tədqiqatlarda, həm də dövlət-diaspor əməkdaşlığında bu yanaşma faydalı ola bilər.

Diaspora milli və bəşəri proseslərdə analitik alət kimi bir kodeks olaraq qəbul olunması şərtdir. Dini diaspora da bura daxil olunmalıdır. Din diasporanın mürəkkəb orqanizminin sağlam metabolizmi ola bilər.

## PROBLEMİN QOYULUŞU

Məlumdur ki, nə din, nə də diaspor aydın şəkildə müəyyən edilmiş və ya məhdud kateqoriya deyil, lakin hər ikisi insan amilinə söykənir. Təcrübə göstərir ki, bu etnogenezlə və coğrafi arealla üzvi şəkildə bağlıdır.

- Miqrasiya edən şəxslərin öz dini dünyagörüşü ilə bərabər yerdəyişməsi, yurd salması və rituallar həyata keçirməsi;
- Diasporal ailələrdə dini baxımdan inteqrasiya ilə bağlı çətinliklərin yaranması və yad mühitdə öz mənəvi dəyərlərinin qorunub saxlanılmasına əngəllərin olması;
- Diaspora kateqoriyasına daxil olan insan qrupunun dini inanclarına sahib çıxmaması, missionerlər tərəfindən yeni dini ideyalarının qeyri-sağlam dini təfəkkürün yaranması;
- Mənşə və təyinat ölkəsinin din sahəsindəki dövlət siyasətinə uyğun olmayan məzhəb və təriqətlərlə məşğul olmaq, həssas qrup kimi dini təyinatlı dəstələrlə əməkdaşlıq edilməsi.

Bütün regional və tarixi faktorlar dinlərin və diasporların harmoniyasını göstərir: bu hallarda birinci nəsil diaspora ana həyat tərzinin dağılması üzərində qurulur və qlobal, şəbəkə əlaqəsi ortaq dini fəaliyyətin davamlı əlaqələrindən asılıdır.

Xüsusilə, diaspora və dinin transmilli, qlobal və ya qeyri-lokal olaraq müəyyən edən icmalar naminə nə edildiyini və onun fəaliyyət şərtlərinə toxunduğu görünür. Dini formasiyalar və qlobal şəbəkələr arasındakı əlaqəni başa düşmək bizi mənsubiyyətin kritik əlaqəsindən qaynaqlanır.

Bütün dövrlərdə din – ictimai və individial; fərdi və kollektiv; Avropa və Afrika paytaxtlarında; Asiya və Yaxın Şərq kontekstlərində - səma, göy, qalaktika (kosmosla) ilə insan bağlılığı üçün zəmin yaradır.

İnsanlar miqrasiya etdikcə, icmalar halında hərəkət etdikcə və fəaliyyət göstərdikcə dini inancları ilə bağlı problemlərlə qarşılaşır və çətinliklərə məruz qala bilirlər. Bütün sosial proseslərdə kimi, zamanla dini həyatda baş verən dəyişikliklər cəmiyyətin inteqrasiyası və assimliyasiyasını əks etdirir. Çünki bu humanitar dinamizmi ehtiva etməklə, həm də teologiyalar da təkcə davamlı əlaqələr yaratmaq, həm də səpələnmədə, eyni zamanda yeni evlər və bir çox yerlərdə icma həyatını qurmağın yeni yollarını tapmaq məqsədi ilə ideologiyanın elastikliyi və tətbiqinə kömək göstərir. Multikultural həyat tərzinin və tolerant mühitin yaranmasına səbəb olur.

Dini ritualların sağlam və sərbəst şəkildə həyata keçirilməsi həyat tərzinə, həmçinin mədəniyyətlərin genişlənməsinə, milli prioritetlərin reallaşmasına gətirib çıxarır. Etnik və dini strukturlar arasındakı prosesi inkişafa doğru dəyişir. Yeni yerlər, məskunlaşmalar yeni tələblər yaradır. Dini baxış müasirləşməsini, hətta dəyişməsini və ya yeni şəraitə uyğunlaşmasını diqtə edir. Yerli mühit müvafiq çətinliklərə uyğunlaşmağın yollarını axtarır və yad təsirlərə məruz qalma təhlükəsi ilə qarşılaşır. Din bəlkə də mövcud olan ən çevik ictimai formasiyalardan biridir: həmrəylik naminə və müqavimət naminə tətbiq edilir; əlaqə xatirinə və əlaqəni kəsmək xatirinə istifadə edilir.

Ən əsası, dini həyatın yerli formasiyalarının yeni şəraitə uyğunlaşması, mənsubiyyət formalarının qurulmasında iştirak edən impulslara və proseslərə adekvat cavab verilməsinə şərait yaradır. Bu, mərhələli keçid əlaqəsidir və əgər tənliyin bir tərəfi təşəbbüskar kimi müəyyən edilməlidirsə, digər tərəfdən biz təklif edirik ki, diasporada sənədləşdirdiyimiz dini dəyişiklikləri ruhlandıran mənsub olmaq həvəsidir.

Diasporal həyatlar mütləq məkanda parçalanma və sarsıntı ilə qeyd olunur və dini rəvayətlər çox vaxt məkanlar arasında ardıcıllıq baxımından qurulsa da, yaşanan zaman hərəkət etdikcə reallıqlarda tez-tez dəyişir.

Davamlılıq istəkləri o deməkdir ki, bu variasiyalar dindarlar üçün mütləq ziddiyyətlər doğurmur, lakin: dini həyatın paradiqmaları yeni mənsubiyyət formaları nəticəsində və təsir edərək dəyişə bilər ki, həyat bir az daha qüsursuz görünə

bilər. İnsanlar başqa yerə köçdükdə dinlər dəyişməlidir və tək teologiyalar bir neçə yerdə işləyəcəklərsə, bir neçə formada olmalıdırlar düşüncəsi yanlışdır.

Dini dəyişiklik deyil, coğrafi proseslər mədəniyyətlərin genişlənməsi ilə uzlaşır və onunla sıx əlaqədə baş verir. Buradakı etnoqrafik və tarixi dəyişmə nümunələrinin ənənəvi dini ritorikaya – məsələn, İslamın həcc mərasimi, eləcə də digər din və inanclarda ruhlar, ziyarətgahlar və birliklərin əsasını təşkil etməsinin nə dərəcədə ardıcıl olduğunu göstərir...

"Diasporanın bu xüsusi buraxılışı şəxsiyyətin klassik forması olan dinə özünü zaman və məkanda təqdim etdiyi şəkildə baxır. Keçən əsrdə aparılan bir çox tarixi və etnoqrafik araşdırmalar məhdud və ya qeyri-məhdud topluluqlar arasında son zamanlardakı dini kimliyi araşdıraraq qlobal mobilliyin çağırışları haqqında olan narahatçılıqlar (həm elmi, həm də siyasi cəhətdən), səpələnmiş icmalar arasında əlaqələrin saxlanılması, yaradılması və bəzən də mürəkkəbləşdirilməsində dinin mürəkkəb dinamikası ilə bağlı yeni tədqiqatlara səbəb olmuşdur. Həqiqətən də din, diasporaların ümumi şüur və ortaq təcrübə yaratmasına imkan verən ən mühüm ifadələrdən biridir. Bu, dinin tez-tez doğurduğu dərin mənsubiyyət hissini necə əldə etdiyini və icmalar tək bir məkanda məhdudlaşmadıqda belə dini həyatın həmrəyliyi necə təmin edə biləcəyini anlamaq probleminə girişdir".[8]

Bütün regional, dini və tarixi müxtəlifliyi dinlərin və diasporaların bir-birini necə istehsal etdiyini göstərir. Bu hallarda dini həyat dağılmağa əsaslanır və  qlobal şəbəkə əlaqəsi ortaq dini fəaliyyətin davamlı bağlarından asılı olur.

Müasir dövrdə ən geniş yayılan etno-sosial və etno-mədəni təmayüllü cərəyan diasporalaşmadır. Etnik seperatizm və dini ekstremizm dalğalarının yayılması və təhlükəsinin artmasıdır.

Qlobal çağırışları fonunda tez-tez rast gəlinən diaspora termini dini xarakterilə diqqət çəkir. Yaranması və formalaşmasında dini və mənəvi köklərin olduğunu büruzə verir. Diaspora və din kimliklərinin tarixən bərabər addımladığı qənaəti ortaya çıxır. İstər diaspora (Septuhainte) terminin istifadəsi, istərsə də diaspora fəaliyyətinin yaranmasının dini amillərlə sinxron bağlılığı təşkil edir.

Qədim dövrdən insanlar müxtəlif dini təfəkkürə və inanca sahib olublar ki, bu da onların yerdəyişməsi, miqrasiyası, köçü zamanı mənəvi dəyər kimi daşınıb və yeni məskən saldığı məkanda yaşadılıb. Tarixi vətəndən gətirdiyi digər milli xüsusiyyətlər,  adət-ənənələrlə yanaşı qorunub saxlanılıb və gələcək nəslə ötürülüb. Bu faktor hazırda da davam etdirilir.

"İlk dəfə İncilin (Bibliya) yunan dilində tərcümə olunan variantı "Septuhainte" – bizim bildiyimiz diaspora anlamını verən insanların və etnik qrupların başqa ərazilərə səpələnməsi mənasında işlədilir. Burada "yəhudilərin bütpərəstlər içərisində səpələnməsi" mənasını ifadə edən diaspora termini sonradan Plutarx, Filon İsgəndəriyyəli və başqa müəlliflərin əsərlərində etnik qrupların səpələnməsi və yayılması kimi istifadə edilməyə başlanılıb".[9]

Göründüyü kimi, insan cəmiyyətində, millətlərin və xalqların tarixi vətənlərindən kənarda yaşaması və vahid icma halında məqsədyönlü fəaliyyəti anlayışının – diaspora termininin əmələ gəlməsinə başlıca səbəb dini fəaliyyət olmuşdur.

Din həmişə miqrasiya, şəxsiyyət və diaspor icmalarının mədəniyyətləri ilə əlaqəli olub. Bəzi dinlər bir neçə sadiq insanın öz inanclarını və ayinlərini uzaq şəhərlərdə, və ya başqa ölkələrdə olanlara çatdırmaq istəyi səbəbindən yayılıb. Kütləvi informasiya vasitələrinin və qlobal elektron kommunikasiyaların yüksəlişindən əvvəl bu, ümumiyyətlə, missiyanı nəzərə alaraq köç edən fərdlərdən və kiçik xüsusi qruplardan asılı idi.

Məsələn, erkən Buddistlər Şimali Hindistandan Çinə və Yaponiyaya səyahət edərək Buddanın hekayələrini, onun təlimlərini və təcrübələrini yaydılar.

Rəqəmsal texnologiya indi dini fikirlərin vebsaytlar və videolar vasitəsilə sürətlə çatdırılmasına imkan versə də, şəxsi qarşılıqlı əlaqə ən effektiv yayılma vasitəsi olaraq qalır. Bu nöqteyi-nəzərdən yanaşdıqda diaspora ən münbit şəraitə malik ictimai təsisatdır. Missionerlərin bura müdaxilə etməsi labüddür, müəyyən şirnikləndirici və cəlbedici metodlardan istifadə mümkündür.

Məsələn, Xristian Pentikostalizmi XX əsrdə Şimali və Cənubi Amerikadan Afrika və Asiyaya, əsasən, İncil mesajlarını yeni icmalara çatdırmaq üçün səyahət edən missionerlərin səyi nəticəsində uğurla yayıldı. Daha sonra radio, televiziya və

[8] Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. 2022-ci ilin may ayında beynəlxalq vəziyyətə dair Bülleten. - 2022.- May. - S.12.
[9] Azərbaycan diasporu. Ensklopedik məlumatlar toplusu. Bakı şəhəri, 2012, 654 s.

son olaraq İnternet resursları onlara İsa və Müqəddəs Ruhun qüdrəti haqqında təbliğləri ilə geniş auditoriyaya çatmaq üçün müvafiq platforma təqdim etdi.

Coğrafi kontekstindən və mədəniyyətindən asılı olmayaraq insanlara xitab etmək üçün nəzərdə tutulan bəzi dinlər – xristianlıq, islam və buddizm universal təlimlər təklif etsələrdə bu müəyyən əraziyə və ya insanlara bağlıdır. Hinduizm, Yəhudilik, Xristianlıq yerli mühitə uyğunlaşmalar və ya yerli adət-ənənələri əhatə edən bu ikinci din qrupu missiya və dinə gəlmə ilə deyil, öz tərəfdarlarının miqrasiyası ilə yayılır. İsraildəki vətənlərindən sürgün edilən ilk yəhudilər - ilk "diaspora" - yeni torpaqlara səyahət edərkən dini adət-ənənələrini, ayinlərini və inanclarını özləri ilə apardılar. Məqsədləri başqalarını yəhudiliyə çevirmək deyildi, bunu qorumaqdı. Təbii ki, onlar köç edib məskunlaşdıqca din onlarla birlikdə yayıldı və genişləndi.[10]

Fikrimizcə, etnik, dini və mənəvi identikliyi özündə ehtiva edən diasporanın təməlində də insanların birləşməsi, fəaliyyəti və idarə olunmasında güclü ideologiya olmaqla yanaşı, sivilizasiyanın formalaşmasında böyük təsir qüvvəsinə malik olan din faktoru dayanır.

Məsələn "Azərbaycan diasporu. Ensklopedik məlumatlar toplusu"nda diasporla bağlı müxtəlif fikirlər içərisində sistematik olaraq qütbləşmələr sırasında dini müxtəliflik də göstərilir.

Bunu aşağıdakı ardıcıllıqla sıralayırlar:

1. Diasporların məkanları və əraziləri.
2. Diaspor konsepsiyası: Coğrafi və politoloji yanaşma.
3. Səpələnmə: qəbul edən ölkələrdə (məskunlaşan) diasporların əraziləri:
   - İcma bağlılığı;
   - Ərazi cizgiləri.
4. Ana ərazi və yaddaş (tarixi vətən): Diaspora və tarixi vətən arasında iqtisadi və siyasi münasibətlər.
5. Məkan: şəbəkələrdə münasibətlərsistemi və diasporların çoxqütblüyü; Diasporların mənşəyi.
6. Diasporlar dünyada:

- Böyük dünya dövlətləri;
- Güclü demoqrafik təzyiq və nisbi kasıblıq zonaları;
- Diasporların əsas yerləşmə məkanı, Avrasiya qitəsi və onun ikili dəniz və quru kommunikasiya oxları.

7. Diasporların tipologiyası:

- Müəssisə qütbü – iqtisadi;
- Dini və linqivistik qütb – dini;
- Siyasi qütb – siyasi və lobbiçilik;
- Qütbün olmaması – müxtəliflik və rəngarənglik, mobillik.[11]

Nəzərə alsaq ki, dünya yaradılışında və bəşəriyyət formalaşmasında din amili ön plana çəkilir və bir çox nəzəriyyələr bunu elmi cəhətdən sübut etməyə çalışır.

Birbaşa insan faktoru ilə bağlı olan dini diasporadan, diasporanı da dindən ayrı təsəvvür etmək mümkün deyil. Çünki insan amilini – qrupunu olduğu kimi götürsək dini və mənəvi məsələlərin əsas olduğunu deyə bilərik.

Məlumdur ki, diaspora termini yəhudilərlə əlaqələndirilir. Onların sürgünü ilə bağlı olan bu termin İudaizmi dinindən irəli gələn əlamət olduğu deyilir.

"Bu termin dünya yəhudiləri arasında müxtəlif dillərdə danışmalarına baxmayaraq, eyni mənada işlədilir. Yəhudilər Qalutda – diasporda yaşamağı "ağır, əzabverici həyat yolu və qul vəziyyəti" kimi qəbul edilir. Bu termin Bibliyanın yəhudilik hissəsində 15 dəfə, aramey hissəsində 4 dəfə və kumran mətnlərində 1 dəfə işlədilir".[12]

"Azərbaycan diasporu. Ensklopedik məlumatlar toplusu"nda da Azərbaycan diasporasının yaranmasında səbəb kimi, din amili göstərilir. Yəni, İslam dininin yarandığı dövrdə Ərəb xilafətinin yürüşləri və işğalları zamanı insanların məcburi

[10] Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. 2022-ci ilin iyul ayında beynəlxalq vəziyyətə dair Bülleten. - 2022.- İyul.- S.19.
[11] Sədrəddin İsmayılov. Tərk-silah edilən diaspor, kilsə və lobbi: Ermənistanın əsas problemi – TƏHLİL. 2024, 6 iyun. Report İnformasiya Agentliyi / https://report.az/amp/analitika/terksilah-edilen-ermeni-diasporu-kilsesi-lobbisi-ermenistan-dovletinin-esas-problemi/
[12] Azərbaycan diasporu. Ensklopedik məlumatlar toplusu. Bakı şəhəri, 2012, 654 s.

və ya könüllü (ziyarətlər, elm dalınca gedənlər daxil) miqrasiyası, yerdəyişməsi nəticəsində icmalar yaranması meydana çıxır.

“Ərəblərin işğal etdikləri ölkələrdə yerli əhali İslam dinini qəbul etdikdən sonra artıq VIII əsrin sonunda bu din Azərbaycan ərazisində hökmran dinə çevrildi. Yerli əhali müsəlman sivilizasiyası və mədəniyyətinin yaranması və inkişafı prosesində fəal iştirak etməyə başladı. Azərbaycanlılar yüksək təhsil almaq üçün Bağdad, Kufə, Bəsrə, Dəməşq, Mədinə, Qahirə və İsgəndəriyyə şəhərlərinə getməyə başladılar.

IX əsrin əvvəllərində yaşamış ərəb müəllifi yazır ki, Mədinə şəhərində elə bir şair yoxdur ki, o, Azərbaycandan olmasın”.[13]

Tarixdən məlumdur ki, dini faktor və ideologiyadan diaspora fəaliyyətindən istifadə edən və yararlanan xalqlardan biri ermənilərdir. Onlar din amilindən məqsədyönlü şəkildə metodlarla müxtəlif mexanizm quraraq məkrli niyyətlərini güdürlər.

“Osmanlı imperiyası dövründə tətbiq olunan “millət” sistemi və 1863-cü ildə Erməni Millətinin Əsasnaməsinin qüvvəyə minməsi nəticəsində İmperiya sərhədləri içərisində olan erməni icmasının rəsmi nümayəndəsi kilsə olaraq qəbul edildi. Erməni kilsəsi həm kimlik, həm də sosial sahədə icma üçün vacib yerə sahibdir. Bu proses isə kilsəyə siyasi olaraq erməni kimliyi formalaşdırmaq üçün güc və səlahiyyət verdi”.[14]

Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni diaspora təşkilatları həm sivil, həm də dini təmayülə bölünür. Xristianlığın Qriqorianlıq məzhəbini vahid dini-mənəvi – siyasi-ideoloji yol kimi qoyaraq mənafelərini həyata keçirirlər.

“Tarixən erməni kilsəsi Osmanlı imperiyası daxilindəki bütün erməni üsyanlarında fəal iştirak etmiş və erməni icmasının siyasiləşməsində ən vacib katalizator rolunu oynamışdır. Kilsə erməni icmasının köç etdiyi ölkələrdə erməni şüurunun inkişafında ən güclü institusional quruluş olmuşdur. Başqa sözlə, ermənilyin ən vacib əlaməti erməni kilsəsinə sədaqətdir...”.[15]

Xiristian icmaları ilə münasibətlərdə din məsələsindən məharətlə bəhrələnirlər.

“Bütün erməni katolikosu II Qaregin Balkan ölkələrində Erməni Apostol Kilsəsinin Patriarx Nümayəndəliyinin yaradılmasını təsdiqləyib. EAK-ın Balkanlardakı nümayəndə heyətinə Albaniya, Sloveniya, Serbiya, Bosniya və Hersoqovina, Şimali Makedoniya, Monteneqro və Xorvatiyanın erməni kilsə icmaları daxildir. Erməni Apostol Kilsəsinin Rumıniya Yeparxiyasının nümayəndəsi və Bolqarıstan Erməni Yeparxiyasının Vikarı, Yepiskop Tatev Akopyan Balkanlara Patriarx Nümayəndəsi olaraq təyin edilib”.[16]

Göründüyü kimi, Ermənistanın dövlətçiliyinin bazisi sayılan kilsə çalışır ki, hər bir ölkədə onun nümayəndəliyi olsun ki, diasporal fəaliyyət daxil, erməniçiliyin maraq və mənafeyi qorunsun və mərkəz kimi bunu koordinasiya edə bilsin.

Araşdırmalardan görünür ki, kilsə dini-mənəvi işlərlə deyil, siyasi-iqtisadi, lobbiçiliklə məşğul olur və bu istiqamətdə təşviqetmə aparır. Bu ta qədimdən müasir dövrə qədər gəlib çıxan prosesdir. Diaspor nəzəriyyəsi və praktikası bunu deməyə əsas verir.

Klassik yəhudi və erməni diasporlarının genişmiqyaslı fəaliyyətinin mahiyyətində din faktoru durur. İudaizmin (Musəvi) yəhudi etnosuna, Xristianlığın Qriqorianlıq məzhəbinin erməni etnosuna məxsus olması milli-dini ideologiyanın başlıca zəminidir.

Orta əsrlərin Səlib (Xaç) yürüşləri bunun bariz nümunələrindəndir.

“Amerika Erməni Milli Komitəsinin Qərb region Təhsil Komitəsi (Armenian National Committee of America – Western Region Education Committee) qondarma “erməni soyqırımı”nın tədrisi üçün müəllimlər axtarıb. Komitə (2022) fevralın 10-na kimi müraciətləri qəbul edərək, apreldə isə qondarma “erməni soyqırımı”na həsr olunmuş virtual mərasim zamanı yeni məllimlərin adları açıqlanıb. Tabibyan ailəsi Ermənistanın Dzovinar kəndində yeni təşəbbüslərin həyata keçirilməsi

---

[13] Yenə orada.
[14] Elnarə Qəribova. Avropada erməni olmaq: Erməni kimliyi və diasporası. 23.01.2021 / https://stm.az/az/news/274/avropada-ermeni-olmaq-ermeni-kimliyi-ve-diasporasi
[15] Yenə orada.
[16] Yenə orada.

üçün 70 min ABŞ dolları dəyərində maliyyə dəstəyi ayırmışdır. Belə ki, bu məbləğin köməyi ilə kənddə yeni kiçik bizneslərin açılması, eləcə də kompüter proqramının öyrədilməsinə start planlaşdırılmışdır. Təzəlikdə bərpa olunan Xristian Təhsil İcması mərkəzinə (Cristian Education Communitiy Center) 10 ədəd yeni kompüter verilmişdir. Eləcə də, kəndin ibtidai məktəbinə ianə kompüterlər ayrılmışdır”.[17]

Göründüyü kimi, dini institutlar milli maraqların qarşılanmasına xidmət müqabilində “həssas güc” kimi təbliğ olunur. Etnik fəaliyyətlərdə, milli müqəddərat kimi məsələlərdə, habelə diasporal fəaliyyətlərdə dini inanc və oxşar talelər körpü rolunu oynayır. Birləşdirici xüsusiyyətə malik olur.

“2022-ci il iyulun 9-da ABŞ Konqresinin 35 nümayəndəsi prezident Co Baydenə məktub ünvanlayaraq, Türkiyəyə F-16 döyüş təyyarələrinin satılmasını dayandırmağa çağırmışlar. Səbəb olaraq, Türkiyənin ölkə daxilində “repressiya”, xaricdə isə Yunanıstan, Kipr, Ermənistan və kürdlərə qarşı “təcavüzkar siyasətini” göstərmişlər.

Həmin məktub Amerika Erməni Milli Komitəsi, Amerikanın Kürd Dostları (American Friends og Kurdistan), Amerikanın Yəhudi Komitəsi (American Jewsh Committee), Amerikada Yunan Liderlik Şurası (Hellenic American Leadership Council), Xristianların Müdafiəsi naminə (In Defense of Christians), Yaxın Şərq Forumu (Middle East Forum), PSEKA – Kipr üçün Ədalət naminə Beynəlxalq Koordinasiya Şurası (PSEKA – International Coordinating Committee Justice for Cyprus) tərəfindən də dəstəklənmişdi”.[18]

Erməni diaspora-din əməkdaşlığı etnik-milli konsepsiyanın tanıtma və təbliğat kampaniyasında birlikdəlik təşkil edir.

“Hazırkı dövrdə erməni diasporasının ən fəal olduğu ölkələrdən biri ABŞ-da təxminən **900.000** erməni əhalisinə xidmət edən **182 ayrı kilsə və bu kilsələrə bağlı ümumilikdə 1222 fond var**. ABŞ-da demək olar ki, bütün əyalətlərə səpələnmiş bu kilsələr **əsasən California, Nyu York və Nyu Cersidə yerləşir**. Kanadada təxminən **60.000** erməni əhalisinə xidmət edən **21 kilsə və kilsələrə bağlı** (affiliated foundations) **390** fond, Livanda təqribən **120.000** erməni əhalisinə xidmət edən **77 erməni kilsəsi,** Fransada isə təxminən **750.000** erməni əhalisinə xidmət edən **98 kilsə və kilsələrə bağlı 977 fond** var. Adı çəkilən kilsələr **Qriqorian, Katolik Erməni və Protestant Erməni Kilsələrinin ümumi sayına** aiddir.[19]

Göründüyü kimi, erməni icmasının yerləşdiyi qonaq ölkələrdə erməni kilsələrinin və kilsəyə bağlı fondların sayı kifayət qədər çoxdur. Erməni kilsəsinin erməni milli kimliyinə təsirini nəzərə alaraq, erməni diasporasında erməni kimliyi ilə ev sahibi ölkənin kimliyi arasında bir sərhəd yaratma cəhdinin olduğu güman edilə bilər.

“ - Ümumiyyətlə, erməni məhfumunun, sindromunun texnologiyasın öyrənən zaman təbii ki, burada Qriqoryan kilsə faktorunun çox vacib bir yer tutduğunu görmək mümkündür. Erməni diasporası, erməni milləti öz qarşısına qoyduğu məqsəd və vəzifələr uğrunda mübarizədə həmişə kilsə amilindən yararlanıb. Bu baxımdan da, diasporanı öz ətrafında birləşdirən, birmənalı şəkildə öz əmrlərinə tabe etdirən erməni Qriqoryan kilsəsi həmişə müsəlmanlara qarşı böyük aqressiya ilə yanaşıb. Bütün məqamlarda isə Qriqoryan kilsəsi erməni diaspoasının işini tənzimləyən, işğalçılığa, terrora və tarixdə məlum olan digər əməllərə sövq edən mərkəz rolunu oynayıb. Elə bu səbəbdən də, hal-hazırda da, Eçmiəzdindən bütün dünyaya öz təsirini göstərən bir erməni kilsəsi (məzhəbi) mövcuddur. Məhz onlar bu cür təsir vasitələri ilə digər dindən olan millətlərə və xalqlara qarşı düşmənçilik siyasəti həyata keçirirlər”.[20]

Dünya erməniçiliyin formulu belə hesab edilə bilər: kilsə-diaspor və dövlət. Beynəlxalq icma və həssas güc resurslarından məharətlə bəhrələnərək və dovlətində dəstəyi vasitəsilə Eçiməzdin qriqorianlıq məzhəbi yaratmaq, diaspor vasitəsilə bunu yaymaq üçün əlindən gələn bütün saxtakarlığı reallaşdırmağa çalışırlar.

“Ermənistanın əsas dayaqlarından biri kilsədirsə, o biri də diaspordur. Hər iki baza türk düşmənliyi, Azərbaycan, Gürcüstan, İran və Türkiyə torpaqlarının ələ keçirilməsi kimi saxta ideyalara əsaslanaraq erməniləri ətrafında birləşdirib. Kilsə-diaspor cütlüyü 200 ildən artıqdır müxtəlif ölkələrdəki erməni icmalarını öz çürük düşüncəsinin əsiri edib.

Azərbaycan torpaqlarını işğaldan azad etməklə həm də bu cütlüyün pərən-pərən düşməsinə təkan verib”.[21]

---

[17] Diaspora.TV - https://www.diaspora.tv/az/soydaslarimizin-dini-mezheblerin-tesirine-dusmek-ehtimali-coxdur-siyasi-serhci

[18] Diaspora və lobbiçilik necə yarandı? //Olaylar.- 2014.- 5 noyabr.- S.3.

[19] Elnarə Qəribova. Avropada erməni olmaq: Erməni kimliyi və diasporası. 23.01.2021 / https://stm.az/az/news/274/avropada-ermeni-olmaq-ermeni-kimliyi-ve-diasporasi

[20] Nadar Bayramlı. Kilsə, lobbi, Okampo “Livan səhnəsi”ndə 2024, 24 aprel. Yeni Azərbaycan / https://www.yeniazerbaycan.com/Siyaset_e100650_az.html

[21] Sədrəddin İsmayılov. Tərk-silah edilən diaspor, kilsə və lobbi: Ermənistanın əsas problemi – TƏHLİL. 2024, 6 iyun. Report İnformasiya Agentliyi /

Bəli, dini ideologiya - Eçmiəzdin kilsəsi Ermənistan və ermənilərin təlimat aldığı məkan kimi dünyada öz missiyasını həyata keçirir. Bu yer əsrlər boyu neqativ niyyətlərin reallaşdırılmasına çıraq tutur.

Məsələ burasındadır ki, revanşist təfəkkürlü din xadimləri erməni cəmiyyətinin önündə gedir. Erməni diasporu isə kilsənin çağırışlarına həmişə "adekvat" cavab verərək, beynəlxalq müstəvidə Azərbaycana qarşı qarayaxma kampaniyaları təşkil edir və bu məqsədlə kifayət qədər vəsait xərcləyir. Diaspor həm də, öz vəsaitləri hesabına Qərbdəki siyasətçiləri və digər ictimai personaları ermənilərə lobbiçiliyə cəlb edir.

"Müasir dövrdə də Azərbaycan torpaqlarına qarşı işğalçılıq ideologiyasının, qondarma "soyqırımı" iddialarının əsas ilhamvericilərindən biri məhz erməni kilsəsi və onun başında dayanan katolikos II Qaregindir. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasında, ermənilərin işğalçılıq siyasətini davam etdirməyə ruhlandırılmasında onun "əməyi" çox yüksəkdir. II Qaregin dəfələrlə işğalçılıq siyasətini davam etdirmək məqsədilə maliyyə yardımları üçün erməni diasporuna çağırışlar edib".[22]

Tədqiqatçı haqlı olaraq qeyd edir ki, "Erməni diasporası Ermənistan dövlətinə bağlı deyil, daha əvvəllər mövcud olan erməni kimliyini diasporada itirməmək üçün səylər göstərir və dövləti olan bir millətin diasporası kimi yox, hələ də dövləti olmayan diasporaların xüsusiyyətlərini özündə əks etdirirərək dünyaya təqdim edir. Bu məqamda qeyd etmək lazımdır ki, Azərbaycan diaspora qurumları daha çox dövlətə bağlıdır. Çünki Azərbaycan diasporası, dövləti olan bir millətin diasporası kimi qurulub. Ümumilikdə, erməni kimliyini içərisində olduqları digər cəmiyyətlərdə də qoruyan erməni kilsəsi və erməni məktəblərinin varlığıdır ki, onların olmadığı yerdə kimlik anlayışı havaya sovrulur. Bu səbəbdən yuxarıda təfərrüatlı qeyd edilən məlumatlar əsasında erməni diasporu fəaliyyət göstərdiyi bütün olkələrdə kilsə və məktəbi təmin edir. Ən azından kilsə bu fəaliyyətin instusional davamı üçün vacib şərt və amildir".[23]

## KONSEPTUAL BAXIŞ

Müasir dünyada baş verən hadisə və proseslər göstərir ki, hər hansısa bir dövləti və ya cəmiyyəti parçalamağın iki ən asan yolu mövcuddur:

birincisi, etnik qarşıdurma, ikincisi dini münaqişəyə sürükləməkdir.

*Eyni zamanda, dini radikalizm elementlərinin yaranması və meyllərinin yüksəlməsi, habelə müxtəlif ölkələrdə insani və ideoloji dini cərəyanların - təriqətlərin sərbəst yayılması, belə hallara qarşı mübarizə işinin səmərəli qurulmaması, dindən siyasi məqsədlər üçün istifadəyə şərait yaradılması, beynəlxalq və regional əhəmiyyətli münaqişələrin uzun illər həllini tapmaması və yeni qarşıdurmaların yaranması dünyada ekstremizm və dözümsüzlüyü daha da artırır, onların əhatə dairəsini genişləndirir.*

*Dövlətlərin və beynəlxalq təşkilatların bu risklərin qarşısının alınması məqsədilə göstərdikləri səylər və həyata keçirdikləri tədbirlər bir sıra hallarda ciddi nəticə vermir, əksinə, vəziyyətin mürəkkəbləşməsinə və münasibətlərin daha da gərginləşməsinə gətirib çıxarır.*

*Diaspora və din kimliyi əməkdaşlığı bu neqtivi aradan qaldırmaq üçün yetərincə potensiala sahibdir. Hər ikisinin ayrı-ayrılıqda böyük həssas qrupu mövcuddur və geniş auditoriyası vardır.*

*Bütün bunlar diaspora və din amilinə sivil yanaşmanı, bu sahələr üzrə konseptual iş aparılmalı olduğunu şərtləndirir.*

Hətta, sağlam və sərbəst dini-ideoloji atmosferin yaradılması məqsədilə xarici ölkələrdə kompakt halda yaşayan azərbaycanlıları dini etiqad azadlığının təmin edilməsi, ibadətlərinin asanlaşdırılması məqsədyönlüdür, bunun üçün müvafiq yerlərdə ibadət evləri və din xadimlərinin təhkim olunması mümkündür.

## Sonuç

Göründüyü kimi, diaspora ilə din amilinin paralel tərəfləri mövcuddur. Əsrlər boyu yan-yana dayanıb, birgə addımlayıblar. Din mənəvi-ideoloji fenomen kimi birləşməyə və şəbəkələşməyə təhrik edilibdir. Tarixən xalqlar və

---

https://report.az/amp/analitika/terksilah-edilen-ermeni-diasporu-kilsesi-lobbisi-ermenistan-dovletinin-esas-problemi/

[22] Yenə orada.

[23] Elnarə Qəribova. Avropada erməni olmaq: Erməni kimliyi və diasporası. 23.01.2021 / https://stm.az/az/news/274/avropada-ermeni-olmaq-ermeni-kimliyi-ve-diasporasi

dövlətlər din amilindən müxtəlif məqsədlərə görə istifadə etməyə çalışıblar. Avropa xristian missionerlərinin vasitəsiylə öz maraq və mənafelərini gerçəkləşdirmək üçün yararlanıblar.

Siyasi şərhçi Xəqani Cəfərov haqlı olaraq qeyd edir ki, "Soydaşlarımızın dini məzhəblərin təsirinə düşmək ehtimalı böyükdür. Soydaşlarımızın Azərbaycandan kənarda ənənəvi olmayan dini məzhəb və təriqqətlərin təsirinə düşmək ehtimalı çox olduğu üçün böyük şəhərlərdə yaşayan azərbaycanlıların dini ibadətlərinin asanlaşdırılması məqsədilə həmin şəhərlərə din xadimlərinin təhkim olunması yaxşı olar. Çünki, dünyada vahid bir İslam dini yoxdur". [24]

Politoloq İslam dini adı altında artıq bir neçə, bəlkə də onlarla din yaradıldığını qeyd edib. Təəssüf hissi ilə vurğulayıb ki, islam ölkələri üçün ən böyük bəla olan bu vəziyyətin Azərbaycana yoluxmaq ehtimalı var: "Məsələn, Türkiyədə 400-ə qədər təriqət var. Onların hamısı özünü İslam dinindən saysa da, bir-birilə çox ciddi fərqlilikləri var. Birinin halal hesab etdiyini, digəri haram hesab edir. İbadət və digər dini rituallarda, şəriət qaydalarında çox ciddi fərqliliklər yaranıb. Bu fərqliliklər o qədər dərinləşib ki, təriqətlər bir-birini müsəlman olmamaqda, islamdan çıxmaqda ittiham edirlər".[25]

Tədqiqatın gəldiyi nəticə ondan ibarətdir ki, din amilindən sui-istifadə edilməsinin, xurafat və dünyəvi inkişafa maneə yaratmasının qarşısının alınması çox vacibdir. Azərbaycan diasporunun da mənəvi-dini məsələlərə diqqət yetirməsi labüddür. "Tolerantlığın və mülki inteqrasiyanın milli konsepsiyası" planını da bu təşkil etməlidir. Dini inanc diasporal fəaliyyətdə milli həmrəylik və bəşəri inkişafdan kənarda heç bir halda alət edilməməlidir.

Azərbaycan kontekstində diaspora-din əməkdaşlığına gəldikdə isə daxildə olduğu kimi, xaricdə də tolerantlıq konseptində yaşayan azərbaycanlılar dini siyasi vasitə olaraq istifadə etmirlər. Amma müasir dövr tələb edir ki diasporal fəaliyyətdə din məfhumu nəzərə alınsın Azərbaycan diasporunun dini qolları formalaşdırılsın. Bu mənəvi birlik, ideoloji həmrəylik üçün keçərlidir və məqsədyönlüdür.

Bunun üçün Qafqaz Müsəlmanları İdarəsinin sözügedən regionda, yəni bəlli bir arealda İslam dini qurumlarını koordinasiya edən tarixi təcrübəsi vardır ki, bunu dəyərləndirmək olar.

Elə ölkələr var ki, orada diasporal – ictimai fəaliyyət qadağandır. Ancaq din etiqad azadlığı hər yerdə mümkündür. Belə dövlətlərdə təşkilatlanma üçün ən yaxşı vasitə dini icma yaratmaq ola bilər. Digər tərəfdən, sağlam dini təfəkkürün olmadığı yerdə missionerlər öz niyyətlərini həyata keçirə və təhlükəli düşüncə formalaşdıra bilərlər.

Hətta qeyd edə bilərik ki, bunun fəsadları hazırkı şəraitdə Gürcüstan, Rusiya-Dağıstan və Türkiyə ərazilərində yaşayan azərbaycanlılar arasında hiss olunmaqdadır.

1. Xaricdə fəaliyyət göstərən Azərbaycan icma və diasporlarının müxtəlif dini təsirlərə alət olmaması üçün maarifləndirmə tədbirləri reallaşdırılmalı və metodiki vəsaitlər hazırlanmalıdır;
2. Dünya azərbaycanlılarının dini istiqaməti vahid ideologiya xüsusunda müəyyənləşdirilməli və təbliğ olunmalıdır;
3. Azərbaycan dini dözümlülük və tolerantlıq mövzusunda diasporal tədbirlər keçirməlidir;
4. Azərbaycanlıların aborigen olaraq tarixən yaşadığı ərazilərdə (Gürcüstan-Borcalı; RF-Dağıstan, Dərbənd; Türkiyə-İğdır) dini təmayüllü icmalarla iş aparılmalı müvafiq əyani vəsaitlərlə dəstək verilməlidir;
5. Azərbaycan və azərbaycanlı mentallığını ehtiva edən dini-ideoloji təmayüllü təşkilatlar və mərkəzlər açılmalıdır.

Yuxarıda qeyd olunan məqsədlərə nail olmaq üçün əvvəlcə həm diaspora məfhumu, həm də burada istifadə olunan din amili düzgün başa düşülməlidir. Daha sonra dini diaspora anlayışı nəzəri olaraq açıqlanmalı və paktiki olaraq sağlam ideologiyaya söykənməlidir. Dünyəviliyi, bəşəriliyi, inklüzivliyi, tolerantlığı ifadə etməlidir. Bunlar əsasında diaspora fəaliyyəti və dini baxışın nə demək olduğu açıq-aşkar görünəcəkdir.

Bu xüsusda, qiymətləndirmə aparılmalı, təhlilin nəticələrini qeydə alınmalı, diaspora və din münasibətlərini nizamlaya biləcək indiqatorlar müəllənləşdirilməlidir. Bununla da, diaspora işinin təkmil qurulması mədəniyyətlər və dinlərarası dialoqa, eyni ərazidə müxtəlif etnosların və dinlərin nümayəndələri vahid bir ailə kimi dinc və sülh şəraitində yaşamasına töhfə verə bilər.

---

[24] Azərbaycanın dünya birliyinə inteqrasiyasında diaspor fəaliyyətinin rolu /Vahid Ömərov //Səs.- 2014.- 15 mart.- S.13.
[25] Yenə orada.

*Hakem Değerlendirmesi:* *Dış bağımsız.*
*Çıkar Çatışması:* *Yazar, çıkar çatışması olmadığını beyan etmiştir.*
*Finansal Destek:* *Yazar, bu çalışma için finansal destek almadığını beyan etmiştir.*

*Peer-review*: *Externally peer-reviewed.*
*Conflict of Interest:* *The author have no conflicts of interest to declare.*
*Financial Disclosure:* *The author declared that this study has received no financial support.*

## Kaynaklar

**ƏDƏBİYYAT SİYAHISI**

**Tek yazarlı kitab**

Azərbaycan diasporu. Ensklopedik məlumatlar toplusu. Bakı şəhəri, 2012, 654 s.

Cohen, R. (1997). Global Diasporas: An Introduction. Seattle, WA: University of Washington Press.

**Basılı Makale:**

Azərbaycanın dünya birliyinə inteqrasiyasında diaspor fəaliyyətinin rolu /Vahid Ömərov //Səs. - 2014.- 15 mart. - S.13.

Diaspora və lobbiçilik necə yarandı? //Olaylar. - 2014.- 5 noyabr. - S.3.

Elnarə Qəribova. Avropada erməni olmaq: Erməni kimliyi və diasporası. 23.01.2021 / https://stm.az/az/news/274/avropada-ermeni-olmaq-ermeni-kimliyi-ve-diasporasi

Nadar Bayramlı. Kilsə, lobbi, Okampo “Livan səhnəsi”ndə... 2024, 24 aprel. Yeni Azərbaycan / https://www.yeniazerbaycan.com/Siyaset_e100650_az.html

Sədrəddin İsmayılov. Tərk-silah edilən diaspor, kilsə və lobbi: Ermənistanın əsas problemi – TƏHLİL. 2024, 6 iyun. Report İnformasiya Agentliyi / https://report.az/amp/analitika/terksilah-edilen-ermeni-diasporu-kilsesi-lobbisi-ermenistan-dovletinin-esas-problemi/

**Web Sayfası**

https://www.ecmi.de/fileadmin/downloads/publications/JEMIE/2013/Georgiou.pdf

https://az.azvision.az/news/327837/news.html

https://www.britannica.com/event/Babylonian-Captivity

https://www.britannica.com/topic/Pittsburgh-Platform

https://muse.jhu.edu/pub/50/article/640333/pdf

https://www.movingpeoplechangingplaces.org/identities-cultures/religion-identity-diaspora.html

**Yayımlanmış Konferans:**

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. 2022-ci ilin may ayında beynəlxalq vəziyyətə dair Bülleten.- 2022.- May.- S.12.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. 2022-ci ilin iyul ayında beynəlxalq vəziyyətə dair Bülleten.- 2022.- İyul.- S.19.

**Referenanslar**

Diaspora.TV https://www.diaspora.tv/az/soydaslarimizin-dini-mezheblerin-tesirine-dusmek-ehtimali-coxdur-siyasi-serhci

Xocalı soyqırımı Azərbaycan tarixinin ən qanlı səhifəsidir /Tapdıq Qurbanlı; Rəfiqə Kamalqızı. //Səs.- 2011.- 17 fevral.- S.8-9; 18 fevral.- S.8-9.